***Mina Rəşid***

***Qar yağır ...***

Qar yağır
Xocalı boylanır gözlərimdən
Şaxtalı fevral günlərində
Əl-ayağı don vurmuş, ürəyi, beyni iflic olmuş
Xocalı
Qar yağır
Gülüşü gözlərində donmuş,
Arzuları beşikdə boğulmuş,
Köməksiz, unudulmuş
Xocalı düşür yadıma.

Qar yağır
Ətrafı bürüyən bu bəyaz qar örtüyünün
üzərindən
Qan ləkələri boylanır üzümə
Bu soluxmuş, qırmızı ləkələr bütün fəsillərdə
Torpağımızdan silinmir
ikinci on illiyinə yaxınlaşsa da
Bu qanı hələ silməmişik
B и bizim işimizdi
"Sülhməramlı" özgələrin, yadların yox!
Qar yağır
Necə sevim bu qarı?
Bir yandan düşmən gülləsi, bir yandan
Bu qarın şaxtası neçə günahsız körpəni,
Qocanı nişan alıb
Sonra dəmir vaqonlarda
İlan kimi anamı çalıb

Qar yağır
İki gündür məmləkətin baş şəhərində
sönüb işıqlarımız dözə bilmirik
Amma iyirmi ilə yaxındır
Köçkünlər qaranlıqdan durub baxır
Dədə-baba yurdlarına.
İntiqam gününü gözləyə-gözləyə dözürlər.

... Qar yağır, zülmət yağır...
gözləri tökülüb, başları kəsilmiş
körpə cəsədlərini don vurur
Xocalının nalə səsi havada boğulur...

Qar yağır
Ağı demək istəmirəm
Bu qarın ləkəsini silib oxşamaq istəyirəm
Qələbə sevinci kimi...

***Rəşid M. Qar yağır : şeir // Ulduz. – 2010. – № 2. – S.54.***